**"İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları"nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununa, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununa və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 2 aprel tarixli 980-IIIQD nömrəli qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 262 nömrəli fərmanının 1.3-cü bəndinin və "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 18 mart tarixli 88-IVQD nömrəli qanununun tətbiqi və "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 aprel tarixli 421 nömrəli fərmanının 1.4-cü bəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 27 avqust 2013-cü il
234

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2013-cü il 27 avqust tarixli 234 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması**

## QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununa, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununa və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 2 aprel tarixli 980-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 262 nömrəli Fərmanının 1.3-cü bəndinin və "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 18 mart tarixli 88-IVQD nömrəli Qanununun tətbiqi və "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 aprel tarixli 421 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasi ilə əlaqədar hazırlanmışdır və istehlakçıların (sifarişçilərin) elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması qaydalarını və onlara dair tələbləri müəyyən edir. *Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla, mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması qaydaları və onlara dair tələblər ~~bu Qaydaların tələbləri nəzərə alınmaqla,~~ Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası" ilə müəyyən edilir. Məişət abonentlərinin (sifarişçilərin) mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması (mövcud 0,4 kV-luq şəbəkədən) üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması qaydaları və onlara dair tələblər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 24 iyul tarixli 326 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məişət abonentlərinin mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması (mövcud 0,4 kV-luq şəbəkədən) üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası" ilə müəyyən edilir.*[1]

1.2. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **texniki şərtlər** – elektrik enerjisi ilə təchiz edilməsi nəzərdə tutulan tikinti obyektlərində elektrik qurğularının enerji təchizatı şəbəkəsinə (bundan sonra – ETŞ) qoşulması ilə əlaqədar layihənin hazırlanmasına əsas verən və elektrik enerjisinin verilməsi ilə bağlı mühəndis-texniki parametrləri özündə əks etdirən texniki sənəd;

1.2.2. **enerji təchizatı müəssisəsi** (bundan sonra - ETM) – xüsusi icazə əsasında əhalinin və digər istehlakçıların elektrik enerjisi ilə təchizatına təminat verən hüquqi şəxs;

1.2.3. **dövlət elektroenergetika müəssisəsi** (vahid dövlət elektroenergetika sistemi) - vahid mərkəzdən idarə olunan 110 kV-luq sistem əhəmiyyətli və 110 kV-dan yuxarı ötürücü elektrik şəbəkələri, onların dispetçer idarəetmə vasitələri və ona tabe olan enerji istehsalçıları;

1.2.4. **sifarişçi** – ETM-in ETŞ–yə qoşulması nəzərdə tutulan tikinti obyektlərinə *və ya tikinti obyektlərinin yerləşdiyi*

*(yerləşəcəyi) torpaq sahəsinə* mülkiyyət (sahiblik) və ya digər əşya hüququ əsasında sahiblik edən hüquqi və ya fiziki şəxs olan istehlakçı; [2]

1.2.5. **aktiv istehlakçı** – elektrik enerjisini istehsal və eyni zamanda istehlak edən ənənəvi, alternativ və bərpa olunan elektrik enerjisi istehsalçısı;

1.2.6. **tikinti obyektləri** – tikinti fəaliyyəti prosesində yaradılan və ya yaradılmış bina (o cümlədən, yaşayış binaları, yaşayış evləri) və ya qurğular;

1.2.7. **yaşayış binası** – daimi və ya müvəqqəti yaşayış üçün nəzərdə tutulan yaşayış sahələrindən ibarət və ümumi istifadə sahələrinə birbaşa giriş imkanı olan çoxmənzilli tikili;

1.2.8. **yaşayış evi** – otaqlardan, habelə yaşamaq üçün məişət və digər ehtiyacların ödənilməsini nəzərdə tutan yardımçı sahələrdən ibarət, yerləşdiyi torpaq sahəsinə birbaşa girişi olan fərdi müəyyən edilmiş ev;

1.2.9. **tikinti obyektlərinin ETŞ–yə qoşulması** (texnoloji qoşulma) – elektrik enerjisinin alqı-satqı münasibətlərinin yaranmasına qədər ETM tərəfindən verilmiş texniki şərtlərə uyğun olaraq, tikinti obyektindən ETŞ–yə qoşulma nöqtəsinədək elektrik xətlərinin çəkilməsi, əlavə güc alınması ilə bağlı layihə sənədlərinin hazırlanması və tikinti-quraşdırma işlərinin görülməsi, tikinti obyektlərinin elektrik qurğularının ETŞ–yə fiziki qoşulması və qoşulma aktının tərtib edilməsinə dair göstərilən kompleks xidmət;

1.2.10. **balans mənsubiyyəti sərhədi** – ETM  ilə sifarişçi arasında elektrik qurğularının və avadanlıqlarının balans mənsubiyyətini müəyyənləşdirən ayırma nöqtəsi;

1.2.11. **istismar məsuliyyəti sərhədi** – ETM ilə sifarişçi arasında elektrik qurğularının və avadanlıqlarının istismarına görə məsuliyyət sərhədini müəyyənləşdirən ayırma nöqtəsi;

1.2.12. **balans mənsubiyyəti sərhədi aktı** – ETM ilə sifarişçi arasında balans mənsubiyyəti sərhədini müəyyənləşdirən sənəd;

1.2.13. **tərəflərin istismar məsuliyyəti aktı** – ETM ilə sifarişçi arasında elektrik qurğularının və avadanlıqlarının istismarına görə məsuliyyət sərhədini müəyyənləşdirən sənəd;

1.2.14. **qoşulma aktı** – sifarişçinin tikinti obyektlərinin ETM-in ETŞ–yə qoşulmasını təsdiq edən sənəd;

1.2.15. **qoşulma nöqtəsi** – bu Qaydaların 2.27-ci bəndinə uyğun olaraq, ETŞ–yə fiziki qoşulma yeri.

1.3. Bu Qaydaların heç bir müddəası sifarişçinin mənafeyini ağırlaşdıran formada təfsir edilə bilməz.  ETM texniki şərtlərin verilməsi üçün müraciətlərə baxarkən, inzibati prosedurlar bu Qaydalara zidd ola bilməz. ETM tərəfindən verilən texniki şərtlər və qoşulma nöqtələrinə dair tələblər əsaslandırılmalıdır.

*1.4. ETM xidmət etdiyi rayon və ya şəhər üzrə ETŞ-yə qoşulma nöqtələrini və bu nöqtələrdə şəbəkənin sərbəst güclərini əks etdirən interaktiv elektron xəritəni öz rəsmi internet səhifəsində yerləşdirməlidir.* [3]

1.5. Bu Qaydalar qüvvəyə minənədək ETŞ–yə qoşulmuş (sayğac quraşdırılmış) istehlakçılara onun müddəaları şamil edilmir. Həmin istehlakçıların əlavə güc alması bu Qaydalara uyğun olaraq həyata keçirilir.

1.6. Bu Qaydalara uyğun olaraq, hər bir sifarişçinin ETŞ–yə qoşulma hüququ vardır.

1.7. ETM heç bir ayrı-seçkiliyə yol vermədən, bu Qaydalara uyğun olaraq sifarişçinin tikinti obyektlərinin və elektrik qurğularının ETŞ–yə qoşulması üçün texniki şərtlər verməkdən imtina edə bilməz.

1.8. Sifarişçi verilmiş texniki şərtlərin tələbləri ilə razı olmadıqda inzibati və məhkəmə qaydasında şikayət verə bilər.

1.9. Texniki şərtlərin *hazırlanması* üçün haqq ödənilmir. [4]

1.10. Tikinti obyektlərinin ETŞ–yə qoşulması (qoşulma nöqtəsindən tikinti obyektinə qədər məsafə nəzərə alınmaqla) üçün haqq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyən olunur.

1.11. *Sifarişçi* tərəfindən texniki şərtlərin tələbləri yerinə yetirildikdən və qoşulma haqqı ETM-in bank hesabına ödənildikdən sonra, onun tikinti obyektinin ETŞ–yə qoşulmasına dair qoşulma aktı tərtib edilir və tikinti obyekti ETŞ–yə *3 (üç)* iş günü ərzində qoşulur. [5]

1.12. Texniki şərtlər Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsi ilə müəyyən edilmiş tələblər və ərazi planlaşdırılma sənədləri nəzərə alınmaqla verilir.

## 2. Texniki şərtlərin hazırlanması və verilməsi

2.1. Sifarişçinin elektrik enerjisi (gücü) və ya əlavə güc alması və tikinti obyektinin ETŞ–yə qoşulması ETM tərəfindən verilən texniki şərtlər əsasında həyata keçirilir.

2.2. Tikinti obyektlərində elektrik qurğularının texniki parametrlərinin (maksimal aktiv güc, reaktiv güc, elektrik enerjisinin keyfiyyət göstəricilərinə təsir) və etibarlılıq kateqoriyasının dəyişməsi zamanı yeni texniki şərtlər alınır, digər hallarda yeni texniki şərtlərin alınması tələb olunmur.

2.3. Texniki şərtlər almaq (tələb edilən gücdən asılı olmayaraq) üçün sifarişçi  tikinti obyektinin yerləşdiyi əraziyə xidmət edən enerjitəchizatı müəssisəsinə ərizə ilə müraciət etməlidir. Həmin enerjitəchizatı müəssisəsi sifarişçinin tikinti obyektinin yerləşdiyi əraziyə ən yaxın məsafədə olan lazımi gücə malik enerji mənbəyini müəyyən etməli və texniki şərtlər verməlidir.

2.4. Ən yaxın məsafədə müəyyən edilən enerji mənbəyi digər ETM-in xidmət etdiyi ərazidə olarsa, texniki şərtlər almaq üçün müraciət edilən ETM bu müraciəti texniki şərtlər verilməsi üçün dərhal həmin ETM-ə göndərir və bu barədə sifarişçiyə məlumat verir.

2.5. Tikintiyə icazə icraatı çərçivəsində şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğun olaraq, tikinti obyekti üçün texniki şərtlər sifarişçinin *tikintiyə icazə verən orqana (quruma)* müraciətinə (ərizəsinə) əsasən *həmin orqanın (qurumun)* sorğusu əsasında ETM tərəfindən verilir. [6]

*2.6. Tikintisinə icazə tələb olunmayan, həmçinin Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 79.2-ci və 80-ci maddələrinə əsasən barəsində məlumatlandırma icraatının tətbiq olunduğu tikinti obyektləri üçün texniki şərt sifarişçinin bilavasitə müraciəti əsasında tikinti obyektinin yerləşdiyi əraziyə xidmət edən ETM tərəfindən verilir.* [7]

2.7. ETM *tikintiyə icazə verən orqanın (qurumun)* sorğusunu və bu Qaydaların 2.6-cı bəndində nəzərdə tutulmuş

sifarişçinin ərizəsini, habelə *tikintiyə icazə verən orqan (qurum)* sifarişçinin ərizəsini qəbul etməkdən imtina edə bilməz.[8]

2.8. Sifarişçinin *tikintiyə icazə verən orqana (quruma)* təqdim etdiyi ərizədə aşağıdakılar göstərilməlidir:

2.8.1. sifarişçi hüquqi şəxs olduqda - adı, hüquqi ünvanı və VÖEN-i barədə məlumatlar, fiziki şəxs olduqda isə – adı, atasının adı, soyadı, şəxsiyyət vəsiqəsinə dair məlumatlar, tikinti obyektinin təyinatı və fəaliyyət növü;

2.8.2. ~~bu Qaydaların 2.19-cu bəndinin birinci hissəsində nəzərdə tutulan qaydada ETŞ-yə qoşulan tikinti obyektləri istisna olmaqla, digər sifarişçilər üçün~~ layihə təşkilatı tərəfindən hazırlanmış tikinti obyektinin daxili elektrik təchizatının layihəsinə əsasən elektrik qurğularının aktiv və reaktiv gücü, elektrik enerjisinin keyfiyyət göstəriciləri, etibarlılıq üzrə kateqoriyası, həmçinin ekoloji, texnoloji, qəza gücləri (bronları);[9]

2.8.3. normativ texniki və hüquqi aktlarda və ya tikinti obyektinin layihəsində ehtiyat qidalandırma nəzərdə tutulduğu hallarda, generasiya mənbəyinin gücü və tipi haqqında məlumat;

2.9. ETM–ə *tikintiyə icazə verən orqan (qurum)* tərəfindən göndərilən sorğuya sifarişçinin ərizəsinin surəti ilə yanaşı, tikinti ərazisinin vəziyyət planı, obyektin istismarı üçün mühəndis-kommunikasiya təminatına dair tələbat göstəriciləri barədə sənədlər, obyektin tikintisinə dair layihənin surətləri əlavə edilir.

2.10. Bu Qaydaların 2.6-cı bəndində nəzərdə tutulmuş sifarişçinin təqdim etdiyi ərizədə aşağıdakı məlumatlar göstərilir:

2.10.1. fiziki şəxsin – adı, atasının adı, soyadı, şəxsiyyət vəsiqəsinə dair məlumatlar;

2.10.2. sifarişçinin ETŞ-yə qoşulması nəzərdə tutulan tikinti obyektinin ünvanı;

2.10.3. tələb olunan elektrik enerjisinin gücü və keyfiyyət göstəriciləri.

2.11. Texniki şərt verilərkən bu Qaydalarda nəzərdə tutulmayan məlumatlar və sənədlər sifarişçidən tələb edilə bilməz.

2.12. ETM texniki şərtlər almaq üçün təqdim edilmiş *tikintiyə icazə verən orqanın (qurumun)* sorğunu və ya sifarişçinin ərizəsini qəbul etdiyi gün xüsusi kitabda qeydiyyata alır və bu 1 (bir) iş günündən gec olmayaraq ərizənin qeydiyyat tarixi və nömrəsi haqqında arayış və ya məlumatı müraciət edənə verir.

2.13. Bu Qaydaların 2.16-cı bəndində nəzərdə tutulmuş imtina halları olmadıqda, sorğunun və ya ərizənin qeydiyyata alındığı gündən *10 (on)* iş günü müddətində ETM texniki şərtin verilməsini təmin etməlidir. Bir qayda olaraq texniki şərtlərin qüvvədəqalma müddəti 2 il müəyyən edilir.

2.14. Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar və uyğunsuzluqlar olduqda bu barədə ETM tərəfindən *tikintiyə icazə verən orqana (quruma)* və ya sifarişçiyə *5 (beş) iş günündən* gec olmayaraq yazılı məlumat verilir. Bu halda Qaydaların 2.13-cü bəndində göstərilən müddətin axımı dayandırılır. *Tikintiyə icazə verən orqan (qurum)* və sifarişçi tərəfindən çatışmazlıqlar və uyğunsuzluqlar aradan qaldırıldıqdan sonra həmin müddətin axımı yenidən bərpa olunur.[10]

2.15. Texniki şərtlərin verilməsi haqqında qərar qəbul olunduqda, ETM tərəfindən texniki şərtlər tərtib olunur, səlahiyyətli şəxsin imzası və möhürlə təsdiq edilərək, *tikintiyə icazə verən orqana (quruma)* və ya sifarişçiyə təqdim olunur. *Tikintiyə icazə verən orqan (qurum)* ona ərizə ilə müraciət etmiş sifarişçini dərhal bu barədə məlumatlandırır.

2.16. Texniki şərtin verilməsindən aşağıdakı hallarda imtina edilir:

2.16.1. bu Qaydalarda nəzərdə tutulmuş sənədlər tam təqdim edilmədikdə (çatışmazlıqlar və uyğunsuzluqlar aradan qaldırılmadıqda);

2.16.2. təqdim edilmiş sənədlərdə qeyri-dürüst məlumatlar olduqda.

2.17. *Tikintiyə icazə verən orqana (quruma)* və ya sifarişçiyə texniki şərtlərin verilməsindən imtina edildikdə, bu barədə ona imtinanın səbəbləri göstərilməklə, *5 (beş)* iş günü müddətində yazılı məlumat verilir.

2.18. *Tikintiyə icazə verən orqan (qurum)* sifarişçinin ərizəsinə əsasən sorğu ilə, bu Qaydaların 2.6-cı bəndində nəzərdə tutulmuş sifarişçi isə ərizə ilə ETM-ə təkrar müraciət etmək hüququna malikdir.

~~*2.19. Tikinti obyektləri üçün tələb olunan güc 7 kVt-dək (7 kVt daxil olmaqla, mövcud 0.4 kV-luq şəbəkədən) və qeyd edilən tikinti obyektlərindən ETŞ-yə qoşulma nöqtəsi 50 metrədək olduqda (50 metr daxil olmaqla), qoşulma haqqı ödənilmir, ETŞ-yə qoşulma işləri sifarişçinin müraciəti əsasında verilmiş texniki şərtlərə uyğun olaraq ETM ilə sifarişçi arasında razılaşdırılmış müddətdə sonuncunun hesabına həyata keçirilir.*~~[11]

~~2.20. Bu Qaydaların 2.19-cu bəndində nəzərdə tutulmuş tikinti obyektləri üçün tələb olunan gücün maksimal həddi 7 kVt-dan yuxarı olduqda, *qoşulma işləri sifarişçinin hesabına həyata keçirilir və sifarişçi* bu Qaydaların 1.10-cu bəndinə uyğun olaraq qoşulma haqqı ödəyir.~~[12]

~~2.21. Tikinti obyektindən ETŞ-nin qoşulma nöqtəsinədək məsafə 50 metrdən yuxarı olduqda, qoşulma işlərinin görülməsi sifarişçinin hesabına həyata keçirilir.~~

2.22. ETM texniki şərtlərin hazırlanması məqsədi ilə elektrik qurğularının gücü 800 *kVt*-dan yuxarı olan sifarişçinin ərizəsini və ya *tikintiyə icazə verən orqandan (qurumdan)* ETM-ə daxil olan sorğunu, habelə təqdim edilmiş sənədləri ərizənin daxil olduğu gündən *3 (üç)* iş günü müddətində dövlət elektroenergetika müəssisəsinə göndərir. Dövlət elektroenergetika müəssisəsi enerji təchizatı müəssisəsi ilə güc həddini ərizə alındığı gündən *10 (on)* iş günü müddətində razılaşdırmalıdır.[13]

~~2.23. Yaşayış binalarının ETŞ-yə qoşulması üçün ümumi texniki şərtlərin verildiyi və qoşulma haqqının ödənildiyi nəzərə alınaraq, həmin binalarda yerləşən mənzillərin ETŞ-yə qoşulması üçün ayrıca texniki şərtlərin alınması və qoşulma haqqının ödənilməsi tələb olunmur.~~[14]

2.24. Sifarişçi aktiv istehlakçı olduqda, texniki şərtlər bu obyektin tikintisi üçün ixtisaslaşdırılmış institutlar tərəfindən hazırlanmış Texniki İqtisadi Əsaslandırmanın tələbləri nəzərə alınmaqla verilir.

2.25. Texniki şərtlər bu Qaydaların 1 nömrəli əlavəsində göstərilən birtipli formada tərtib edilir.

2.26. Texniki şərtlərdə aşağıdakılar göstərilir:

2.26.1. qoşulma nöqtələri (yarımstansiya, transformator məntəqəsi, elektrik xətti), obyekti qidalandıran hava və ya kabel xətlərinin hansı gərginliyə hesablanması, qoşulma nöqtələrində gərginliyin gözlənilən səviyyəsi;

2.26.2. qısaqapanma cərəyanlarının hesabat hədləri, rele mühafizəsinə, avtomatikaya, rabitəyə, izolyasiyaya və ifrat gərginlikdən mühafizəyə verilən tələblər;

2.26.3. elektrik enerjisinin keyfiyyət göstəricilərinə dair tələblər;

2.26.4. elektrik enerjisinin uçotuna olan tələblər (bir və ya üçfazalı, uçot cihazlarının tipi və dəqiqlik sinfi, gərginlik pilləsi, quraşdırılma nöqtələri və sxemi);

2.26.5. qidalandırma xətlərinə qoşulmuş elektrik qurğularına olan xüsusi tələblər (ehtiyat qidalandırmanın və girişdə avtomatik mühafizənin vacibliyi, qidalandırıcı xətlərin paralel işləməsinin mümkünlüyü, ETŞ-də güc çatışmazlığı yarandıqda, elektrik qəbuledicilərinin məsul yüklərinin elektrik təchizatını təmin etmək məqsədi ilə ehtiyatda olan qidalandırma xətlərinə ayrılması);

2.26.6. yeni obyektin yaranması ilə əlaqədar ~~(gücü 7 kVt olan və mövcud 0,4 kV-luq şəbəkədən 50 metr məsafədə yerləşən məişət abonentləri istisna olmaqla)~~ qoşulması nəzərdə tutulan gücə müvafiq olaraq, mövcud şəbəkəni gücləndirmək haqqında əsaslandırılmış tələblər (naqilin en kəsiyinin artırılması, transformatorların gücünün artırılması və ya dəyişdirilməsi, ehtiyat yuvaların quraşdırılması və s.) [15]

2.27. Qoşulma nöqtəsi aşağıdakı yerlərdə olmalıdır:

2.27.1. yaşayış binasında olan mənzillər üçün yaşayış binasının həmin mənzillərin yerləşdiyi mərtəbədə ümumi istifadədə olan sahəsində quraşdırılmış lövhədə;

2.27.2. yaşayış binasının daxilində yerləşən qeyri-yaşayış sahələri üçün yaşayış binasının ümumi istifadədə olan sahəsində quraşdırılmış lövhədə;

2.27.3. ~~bu Qaydaların 2.19-cu bəndində nəzərdə tutulan tikinti obyektləri istisna olmaqla,~~ tikinti obyektləri üçün ən yaxın məsafədə yerləşən gücə malik olan yarımstansiyada, transformator məntəqəsində, elektrik xəttində (mövcud güc imkan verərsə); [16]

~~2.27.4. bu Qaydaların 2.19-cu bəndində nəzərdə tutulan qaydada qoşulan sifarişçilər üçün sayğacın quraşdırıldığı nöqtədə.~~ [17]

2.28. Tikinti obyektləri inşa edilərkən texniki şərtlərdən kənara çıxma zərurəti yarandıqda, sifarişçi bilavasitə öz ərizəsi və ya *tikintiyə icazə verən orqanın (qurumun)* sorğusu əsasında texniki şərtləri vermiş ETM ilə həmin dəyişikliyi razılaşdırmalıdır. Bu zaman ETM *tikintiyə icazə verən orqanın (qurumun)* müraciət etdiyi gündən *5 (beş)* iş günü müddətində texniki şərtlərdə edilmiş dəyişikliklərə münasibətini bildirməlidir. Bu müddətdə cavab verilmədikdə, layihə razılaşdırılmış hesab edilir.

2.29. Texniki şərtlərin müddəaları yerinə yetirilənə qədər obyektin tikintisinin başa çatdırılması məqsədi ilə ETM sifarişçini razılaşdırılmış güc həddində elektrik enerjisi ilə müvəqqəti texniki şərtlər əsasında təmin etməlidir.

2.30. Müvəqqəti texniki şərtlər bu Qaydaların 2.12-ci və 2.13-cü bəndlərində nəzərdə tutulduğu kimi verilməlidir.

2.31. Tikinti obyektlərinin inşası üçün quraşdırılmış müvəqqəti enerji mənbəyinə digər istifadəçilərin qoşulması qəti qadağandır.

2.32. Müvəqqəti texniki şərtlərin qüvvədə olma müddəti tikintiyə icazə (obyektin layihələndirilməsi və tikilib başa çatdırılması) üçün müəyyən olunmuş müddətdən az olmamalıdır.

2.33. Texniki şərtləri itirmiş sifarişçinin ərizəsinə əsasən ETM əvvəl verilmiş sənədin surətini 5 (beş) iş günü müddətində ona ödənişsiz təqdim etməlidir (müəssisələr üçün arxiv sənədlərinin normativ saxlanma müddətini nəzərə almaqla).

2.34. Elektrik şəbəkəsinə qoşulan sifarişçi (istehlakçı) tikinti obyektlərinin inşası müddətində elektrik gücünə olan tələbatın layihədə nəzərdə tutulmuş maksimum həddən çox olduğu və elektrik enerjisinin nominal parametrlərinə mənfi təsir edəcəyi təqdirdə, enerjitəchizat müəssisəsi sifarişçidən (istehlakçıdan) yeni texniki şərt alınmasını tələb edə bilər.

2.35. *Elektrik* enerjisi sayğacı sifarişçinin elektrik qurğularının balans mənsubiyyəti sərhədində quraşdırılmalıdır. [18]

İstehlakçıların sayğaclarla təchiz edilməsi, onların quraşdırılması və dəyişdirilməsi “Elektrik enerjisindən istifadə Qaydaları”nın müvafiq bəndləri ilə tənzimlənir.

2.36. Sifarişçinin elektrik qurğularının balans mənsubiyyəti sərhədi onun balansında olan elektrik qurğularının ETM-in ETŞ–yə qoşulma nöqtəsidir.

2.37. Sayğacla qoşulma nöqtəsi arasındakı sifarişçinin (istehlakçının) balansında olan hissəyə digər istehlakçılar yalnız onun razılığı əsasında qoşula bilərlər.

2.38. *Sayğacın* balans mənsubiyyəti sərhədində *quraşdırılması mümkün olmadıqda*, ETM-in sifarişçi ilə qarşılıqlı razılıq əsasında və ya əvəzi ödənilməklə sifarişçinin balansında olan sayğacla qoşulma nöqtəsi arasındakı hissəni öz balansına keçirmək hüququ vardır. [19]

2.39. *Tikintiyə icazə verən orqan (qurum)* sifarişçinin ərizəsinin, ETM *tikintiyə icazə verən orqanın (qurumun)* sorğusunun və bu Qaydaların 2.6-cı bəndində nəzərdə tutulmuş sifarişçinin ərizəsinin qəbulunu elektron qaydada, bu mümkün olmadığı təqdirdə isə poçt rabitəsi vasitəsilə və ya birbaşa həyata keçirilir.

*2.40. ETM müəyyən edilmiş qaydada doldurulmuş sorğu, ərizə və tələb olunan sənədlərin elektron formada qəbul edilməsini, bu barədə göndərən şəxsə təsdiqetmə bildirişinin göndərilməsini və həmin sənədlərə bu Qaydaların 2.12 - 2.15-ci bəndlərində müəyyən edilmiş qaydada və müddətdə baxılmasını təmin edir.* [20]

*2.41. ETM tikintiyə icazə verən orqan (qurum) və ya sifarişçi tərəfindən elektron formada göndərilmiş sənədlərin və məlumatların adi qaydada emal edilməsini, saxlanılmasını və mövcud kargüzarlıq qaydalarına müvafiq olaraq baxılmasını təmin etməlidir.*

## 3. Tikinti obyektlərinin ETŞ–yə qoşulması

3.1. Tikinti obyektlərinin ETŞ–yə qoşulması bu Qaydaların 2-ci hissəsinə uyğun olaraq alınan texniki şərtlər əsasında həyata keçirilir.

3.2. Tərəflərin texniki şərtlərdə göstərilən qoşulmaya dair tədbirlərin yerinə yetirilməsi üzrə öhdəlikləri aşağıdakı

kimi müəyyən edilir:

3.2.1. sifarişçinin öz istismarı üzrə öhdəliklərini istismar məsuliyyəti sərhədi nöqtəsinədək, öz balansı üzrə öhdəliklərini isə qoşulma nöqtəsinədək icra etməsi;

3.2.2. ETM öz istismarı üzrə öhdəliklərini istismar məsuliyyəti sərhədi nöqtəsinədək, öz balansı üzrə öhdəliklərini isə qoşulma nöqtəsinədək icra etməsi.

*3.2-1. Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən 150 kVt-dan yuxarı elektrik qurğularının istismarına buraxılış aktı vermək üçün texniki baxış sifarişçilərin təqdim etdiyi aşağıdakı sənədlər əsasında keçirilir:* [21]

*3.2-1.1. ETM-in və ya dövlət elektroenergetika müəssisəsinin verdiyi texniki şərtlər;*

*3.2-1.2. Enerji Məsələlərini Tənzimləmə Agentliyi və ETM ilə razılaşdırılmış enerji təchizatı layihəsi;*

*3.2-1.3. tikinti-quraşdırma işlərini aparmış şəxslə sifarişçi arasında təhvil-təslim aktı;*

*3.2-1.4. elektrik təsərrüfatına cavabdeh şəxsin təyin olunması barədə əmrin surəti;*

*3.2-1.5. kontur torpaqlama müqavimətinin ölçülməsi protokolu;*

*3.2-1.6. transformatorun və avadanlıqların sınaq-sazlama protokolu;*

*3.2-1.7. elektrik verilişi xəttinin sınaq protokolu və qapalı işlər aktı;*

*3.2-1.8. elektrik sayğacının quraşdırılması aktı.*

3.3. Qoşulmaya dair tədbirlər aşağıdakılardır:

*3.3.1. tikinti obyektlərinin (yaşayış evləri və elektrik avadanlıqlarının istismarı üçün müvafiq elektrotexniki heyətin tələb olunmadığı hallar istisna olmaqla) ETŞ-yə qoşulma işləri həyata keçirildikdən sonra 5 (beş) iş günü müddətində Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən ETM və sifarişçinin iştirakı ilə həmin tikinti obyektlərinin elektrik qurğularına texniki baxış keçirilərək texniki şərtlərin və layihənin tələblərinin tam yerinə yetirilməsi müəyyən edildiyi halda, istismara buraxılış aktının verilməsi, sifarişçi ilə ETM arasında iki nüsxədə balans mənsubiyyəti sərhədi, tərəflərin istismar məsuliyyəti və qoşulma aktlarının imzalanması, elektrik enerjisinin alqı-satqı müqaviləsinin bağlanılması, ETM tərəfindən tikinti obyektinin elektrik qurğularının kommutasiya aparatı vasitəsilə ETŞ-yə fiziki qoşulması, gərginliyin və elektrik enerjisinin verilməsi;* [22]

~~*3.3.2. tikinti obyektlərinin (bu Qaydaların 2.6-cı bəndində nəzərdə tutulmuş sifarişçilərə məxsus tikinti obyektləri istisna olmaqla) istismara buraxılışı aktı alındıqdan sonra 5 (beş) iş günü müddətində sifarişçi ilə ETM arasında iki nüsxədə balans mənsubiyyəti sərhədi, tərəflərin istismar məsuliyyəti və qoşulma aktlarının tərtib edilərək imzalanması, elektrik enerjisinin alqı-satqı müqaviləsinin bağlanması, ETM tərəfindən tikinti obyektinin elektrik qurğularının kommutasiya aparatı vasitəsilə ETŞ-yə fiziki qoşulması, gərginliyin və elektrik enerjisinin verilməsi.*~~ [23]

3.3.3. *Yaşayış evləri və elektrik avadanlıqlarının istismarı üçün müvafiq elektrotexniki heyətin tələb olunmadığı hallarda* tikinti obyektləri ETŞ–yə qoşulma işləri həyata keçirildikdən sonra *3 (üç)* iş günü müddətində sifarişçi ilə ETM arasında iki nüsxədə balans mənsubiyyəti sərhədi, tərəflərin istismar məsuliyyəti və qoşulma aktlarının tərtib edilərək imzalanması, elektrik enerjisinin alqı-satqı müqaviləsinin bağlanması, ETM tərəfindən tikinti obyektinin elektrik qurğularının kommutasiya aparatı vasitəsilə ETŞ–yə fiziki qoşulması, gərginliyin və elektrik enerjisinin verilməsi. [24]

3.4. Balans mənsubiyyəti sərhədi aktı və tərəflərin istismar məsuliyyəti aktı qoşulma aktının ayrılmaz hissəsidir. Qoşulma aktı yalnız bu aktların hər ikisi imzalandıqdan sonra imzalanır.

3.5. Sifarişçi ilə ETM arasında qoşulma aktı bu Qaydaların 2 nömrəli əlavəsində göstərilən birtipli formada tərtib edilir.

3.6. Tərəflərin istismar məsuliyyəti sərhədi tərəflər arasında bağlanan istismar məsuliyyəti aktı ilə, balans mənsubiyyəti sərhədi isə balans mənsubiyyəti sərhədi aktı ilə müəyyən edilir və bu Qaydaların 3 nömrəli və 4 nömrəli əlavələrində nəzərdə tutulan birtipli formada tərtib edilir.

***Qeyd****. Bu Qaydalarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.* [25]

“İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları”na

**1 nömrəli əlavə**

**İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün**

**TEXNİKİ ŞƏRTLƏR _______**

**“_____” _______________ 20 __ il**

___________________________________________________________________________

(texniki şərtləri alan şəxsin soyadı, adı, atasının adı, təşkilatın adı, ünvanı)

surəti: *Enerji Məsələlərini Tənzimləmə Agentliyinə*[26]

___________________________________________________________________________

(mərkəzi idarə və ya onun yerli strukturu)

___________________________________________________________________________

(müraciət sənədinin daxilolma nömrəsi və tarixi)

1 . Sifarişçinin tikinti obyektlərinin və ya elektrik qurğularının enerji təchizatı şəbəkəsinə qoşulması:

1.1. qoşulması nəzərdə tutulan gücə müvafiq olaraq, mövcud elektrik şəbəkəsini gücləndirmək haqqında əsaslandırılmış tələblər (naqilin en kəsiyinin artırılması və ya dəyişdirilməsi, ehtiyat yuvaların quraşdırılması və s.)

1.2. bronlaşdırılmış ekoloji, texnoloji və qəza gücü: ____________________

1.3. gücün məhdudlaşdırılması üzrə qrafik: ___________________________

1.4. qoşulma nöqtəsi:

___________________________________________________________________________

(yarımstansiya, transformator məntəqəsi, elektrik xətti, obyekti qidalandıran hava və ya kabel xətlərinin hansı gərginliyə hesablanması, qoşulma nöqtələrində gərginliyin gözlənilən səviyyəsi, yarımstansiyada yuvanın nömrəsi və ya elektrik veriliş xəttinin adı)

1.5. sxemi (balans mənsubiyyəti sərhədi göstərilməklə).

2. Yeni quraşdırılacaq qida mənbəyinə tələblər:

2.1. elektrik enerjisinin keyfiyyət göstəricilərinə tələblərlə əlaqədar reaktiv enerjinin kompensasiya qurğularının gücü: ___________________ kVAR

2.2. elektrik enerjisinin uçotuna olan tələblər (bir və ya üç fazalı uçot cihazlarının tipi, dəqiqlik sinfi, quraşdırma nöqtələri və sxemi ölçü transformatorlarının dəqiqlik sinfi və s.):

___________________________________________________________________________

2.3. gərginlik həddinin tənzimlənməsi üzrə tələblər:

